MEHMAN SÜLEYMANOV[1]

# MÜSƏLMAN ATLI DİVİZİONU

***Açar sözlər:*** *Müsəlman korpusu, Müsəlman atlı divizionu, milli qoşun hissələri, səfərbərlik, milli zabit kadrları*

XX əsrin ikinci onilliyinin sonlarında öz dövlət müstəqilliyini əldə etməsi ərəfəsində Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifələrdən biri milli hərbi qüvvələrin yaradılması məsələsi idi. Bu məsələnin həlli və reallaşdırılması yalnız Azərbaycan xalqının milli mənafelərinin qorunması zərurəti ilə deyil, həm də mövcud mürəkkəb tarixi şəraitdə millətin fiziki mövcudluğunun qorunçası zərurəti ilə şərtlənirdi. Milli qüvvələr şübhə etmirdilər ki, istər Azərbaycanın yenicə qopduğu imperiya hüdudlarında, istər Azərbaycanın özündə, istərsə də ətraf bölgədə cərəyan edən hərbi-siyasi, etnik proseslər xalqı böyük faciələrlə üzləşdirə bilər. Mövcud olan hakimiyyət çərçivəsində dövlət üsuli-idarəsinin səmərəli fəaliyyətinə heç bir ümid bəslənmədiyi bir vaxtda xalqı qarşılaşmış olduğu bu faciələrdən isə milli hərbi qüvvələrə arxalanmaqla qorumaq mümkün ola bilərdi. Belə milli qüvvələrin formalaşdırılması istiqamətində atılmış mühüm tarixi addımlardan biri Müsəlman korpusunun təşkili oldu.

Müsəlman korpusunun təşkili ilə bağlı Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsi tərəfindən qaldırılan məsələ Cənubi Qafqazın o zamankı legitim hakimiyyət orqanı olan Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabr ayının 11-də təsdiq olundu. "Açıq söz" qəzetinin 7 yanvar 1918-ci il tarixli nömrəsində çap olunmuş həmin qərarda deyilirdi:

"1. Zaqafqaziya müsəlmanlarının əsgərliyə alınması könüllü sifətilə olmalıdır.

2. Müsəlman əsgərlərinin toplanması Mərkəzi Zaqafqaziya Müsəlman Komitəsinə tapşırılmalı, məzkur komitə kifayət qədər də silah daşımağa müstəid olan adamlar verməlidir.

3. Toplanmış könüllülər müayinəyi-tibbiyyədən sonra əsgəri hissələrə təqdim edilməlidirlər.

4. Əsgəri hissələrə təqdim edilmiş müsəlman əsgərləri xidməti yerinə yetirməkdən ötrü ümumi qayda və əsas üzrə əsgərlər sinfində qalmalıdırlar.

5. Komandanlar, ərkani-hərb məmurları və ümumiyyətlə bütün zabitlər Zaqafqaziya yerli müsəlmanlarından olmalıdır. Bunlar kifayət etmədikdə başqa millətlər də üzv oluna bilərlər.

6. Qolordunun (korpusun – M.S.) təşkili və hissələrinin təchizi barədə bütün məxaric ümumi əsas və qayda mucibincı Rusiya Cümhuriyyətinin sair əsgəri hissələrində olduğu kimi dövlət xəzinəsi öhdəsinə qoşmalıdır.

Bu qolordu təşkil olunduqdan sonra Zaqafqaziya müsəlmanlarının soldat pulu (əsgəri naloq) verməkdən azad edildikləri haqqında bir əmrnamə verilməlidir" (1, s.86-88).

Müsəlman korpusunun formalaşdırılmasına Cənubi Qafqazın digər milli birlikləri ilə müqayisədə kifayət qədər fərqli şəkildə başlanmışdı. Dövrün milli siyasi fəallarının da bildirdiyi kimi, "müsəlman alayının təşkili mübahisə və münaqişə halında ikən gürcü və erməni alaylarının təşəkkülü haman tamam olub bitmişdi" (7, s.31). Xüsusilə, azərbaycanlıların mövcudluğuna qənim kəsilmiş erməni milli hərbi qüvvələrinin təşkili sahəsində xeyli işlər görülmüşdü. Hələ,1917-ci ilin fevralında Petroqradda hakimiyyət dəyişikliyi baş verəndən sonra Erməni Milli Şurası çar Rusiyasının Cənubi Qafqazdakı ordusu tərkibində artıq mövcud olan erməni atıcı taborlarının bazasında atıcı alayların yaradılması haqqında məsələ qaldırdı. Bu alayların hər birinin iki tabordan təşkil edilməsi nəzərdə tutulmuşdu. Rusiyanın yeni hakimiyyət orqanları ermənilərin bu təklifini də qəbul etdilər və mərkəzin razılığı əsasında Qafqaz cəbhəsi komandanlığı 1917-ci ilin iyul ayında erməni atıcı alaylarının təşkili barəsində əmr imzaladı. Bu yeni yaradılan erməni atıcı alayları

[1] *Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının dosenti, tarix üzrə elmlər doktoru.*

sonradan Erməni korpusunun əsasını təşkil etdi (10). Ona görə də milli korpusların təşkili barəsində Zaqafqaziya Komissarlığı qərar verəndə erməni milli korpusu artıq hazır idi. Müsəlman korpusunun təşkilinə isə heç bir hərbi quruculuq bazası olmadan başlanmalı idi.

Müsəlman korpusuna komandanlıq çar Rusiyası ordusunda general-leytenant rütbəsinə qədər yüksəlmiş və 1917-ci il dekabr ayının 2-də (9, s.185) bu ordudan istefa vermiş general-leytenant Əliağa Şıxlinskiyə tapşırıldı. Müsəlman korpusu Zaqafqaziya Komissarlığı tərəfindən yaradılmış bir hərbi birlik idi və ona görə onun komandanı da Zaqafqaziya Komissarlığı tərəfindən təyin edilmişdi. Amma bu vəzifəyə təyinat Zaqafqaziya Müsəlman Komitəsinin vəsatəti əsasında aparılmışdı.

General-leytenant Ə.Şıxlinski sovet hakimiyyəti illərində yazdığı xatirələrində Müsəlman korpusunun komandiri təyin edilməsi haqqında bu qeydləri etmişdi: "...Sonra Azərbaycan (Müsəlman - M.S.) korpusu təşkil etmək qərara alındı. Bu korpusa komanda etməyi mənə təklif etdilər. Mən xəstə olduğuma və müalicəyə gəldiyimə əsaslanaraq boyun qaçırdım. Buna baxmayaraq mənim orada olmadığım günlərdə Müsəlman korpusu təşçil etmək və başqa bir adam təyin olunana qədər bu korpusa mənim müvəqqəti komandirlik etməyim haqqında əmr vermişdilər. Bu zaman mən Yelizavetpola (Gəncəyə) getmişdim. Tiflisə qayıtdıqda müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmr oxudum... Dekabrın 31-də (1917-ci ildə - M.S.) mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsi ilə məşğul olum" (9, s.188-189).

Zaqafqaziya Komissarlığının 19 dekabr 1917-ci il tarixli qərarına əsasən çar Rusiyası qoşunlarının Cənubi Qafqazda yerləşmiş 6-cı korpusu Müsəman korpusunun formalaşdırılması üçün struktur bazası kimi seçildi (1, s.86-88). Nəzərdə tutulmuşdu ki, 6-cı korpusun təchizatı, strukturları Müsəlman korpusuna verilsin və Müsəlman korpusu onun bazasında formalaşdırılsın. Amma Rusiyadakı hakimiyyət çevrilişlərindən sonra dağılmaqda olan bu korpusdan Müsəlman korpusuna ordu quruculuğu üçün ciddi əhəmiyyət kəsb edə biləcək bir mülkiyyət çatmadı. Yalnız tək-tək qeyri-müsəlman zabitlər Müsəlman korpusu sıralarında xidmət etməyə razı oldular.

Müsəlman korpusunun strukturu 6-cı korpusun strukturuna uyğun idi və onun tərkibinə xidmət sahələrindən başqa bu birlik, hissə və bölmələr daxil idi: hər biri dörd alaydan ibarət olan iki piyada diviziyası, üç alaydan ibarət olan süvari briqadası, iki topçu briqadası, istehkam taboru, atlı batareya, mortir və park divizionu, 2-ci müsəlman mortir parkı (5, v.7-8).

Müsəlman korpusunun təşkili barəsində Zaqafqaziya Komissarlığının qərarından da göründüyü kimi, bu korpus üçün əsgərlərin toplanması Müsəlman Komitəsinə tapşırılmışdı. Yəni, Mərkəzi Müsəlman Komitəsi və yerlərdə olan milli şuralar azərbaycanlı əhali arasından könüllüləri toplayaraq Müsəlman korpusunun strukturlarının formalaşdırılmasına istiqamətləndirməli idilər. Korpusun sıravi heyəti yalnız müsəlmanlardan təşkil olunmalı idi. Korpusun zabit heyətinin komplektləşdirilməsinə isə müsəlman zabitlərinin çatmadığı halda digər millətlərdən olan zabitlər cəlb edilə bilərdi. Azərbaycanlılar yaşayan ərazilərdə səfərbərlik sisteminin olmadığı bir vaxtda əhali arasından əsgər toplanması kifayət qədər mürəkkəb bir məsələ idi. Buna baxmayaraq, hər halda bu istiqamətdə müəyyən işlər aparılırdı.

Müsəlman korpusunun təşkilinə icazə verilməsi milli dairələr tərəfindən kifayət qədər sevinclə qarşılanmışdı və ona görə milli tərkibli qoşun hissələrinə könüllü şəkildə qoşulmaq istəyənlər də yox deyildi. Məsələn, Rəşid bəy Şəmşəddinov adlı bir azərbaycanlı öz ətrafında atlılardan ibarət dəstə toplamış komandanlığa müraciət edərək dəstəsi ilə Müsəlman korpusu tərkibində xidmət etmək arzusunda olduğunu bildirmişdi. Müsəlman korpusu komandanının müvafiq əmri ilə Şəmşəddinovun bu təşəbbüsü qəbul olunmuş və ona hətta praporşik (leytenant) rütbəsi də verilmişdi (4, v.15).

Mövcud olan məlumatlara görə, Müsəlman korpusunun təşkilinə başlanmasından sonra hətta başqa şəhərlərdə təhsil alan azərbaycanlılar da Bakıya qayıdır və milli qoşun hissələrinin sıralarına yazılırdılar (8).





Bakıda da milli əhval-ruhiyyəli gənclər arasında Müsəlman korpusuna könüllü yazılmaq üçün bir fəallıq özünü göstərməyə başladı. Azərbaycanın milli sahibkarlığının aparıcı nümayəndələri olan H.Z.Tağıyev, Ş.Əsədullayev kimi zənginlər tərəfindən müdafiə olunan və maliyyə dəstəyi göstərilən milli tərkibli bölmələrin təşkilində elə bu zənginlərin övladları da iştirak edirdilər. O cümlədən, H.Z.Tağıyevin oğlu Məhəmməd və Ş.Əsədullayevin oğlu Əli Bakıda milli tərkibli qoşun bölmələri tərkibinə yazılan ilk könüllülərdən idilər. Yeni yaradılan milli qoşun dəstəsinin Bakı millionerlərinin maliyyə dəstəyinə əsaslandığını həmin dəstənin tərkibində xidmət etmiş İvan Zaxarov adlı zabit də təsdiq edirdi (2, v.24).

Könüllülər hesabına Bakıda formalaşdırılan milli qoşun dəstələrindən birinin üzvü Mirəziz Seyidli həmin günlərdə görülən işləri belə təsvir edirdi: "Hacı Zeynalabdin kimi zənginlərdən pul toplanıldı və "İsmailiyyə"nin bir guşəsində gurultusuz "könüllü" əsgər toplantısına başlandı. İlk həftədə 50-60 könüllü yazıldı. Onlar arasında arkadaşlara örnək olmaq üçün mən də vardım. Təşkilatın başında atlı minbaşısı İskəndərbəyli dururdu. Könüllülərimizin içərisində ən yaxşı Dağıstanlı qardaşlarımızdan da var idi. Bakının Çəmbərəkənd məhəlləsində məktəb binasından əcələ qışla yapıldı və dərhal əsgəri təlimlərə başlandı. Ancaq silahsız idik. Qışla bulunduqdan sonra 20-30 əsgər daha alındı. Bunların arasında milyonçu Hacı Zeynalabdinin oğlu Məhəmməd də vardı. Bu gənc tələbə millət yolunda özünü qurban etməyə önümüzdə and içdi və o gündə də səmimi arkadaşımız oldu. Əsgər toplamaq güc iş deyildir. Könüllü yazılaraq öz millətinə xidmət etmək arzusunda olanlar çox idi. Ancaq silah və eyni zamanda zabit yoxluğu böyük nöqsanlarımızdan biri idi. Zabit məsələsini həll etmək üçün Miralay Tabasaranlının idarəsi altında Çəmbərəkənddə bir hərbi məktəb yarandı və tələbə qardaşlarımın bir çoxu oraya yazıldı" (8).

Mirəziz Seyidli sonra xatirələrində Lənkərana 80-ə yaxın hərbi xidmətçinin yola düşdüyünü yazırdı. Buradan belə qənaətə gəlmək olar ki, Bakıda yeni yaradılan milli qoşun dəstəsinin tərkibinə 80 nəfər könüllü toplanmışdı. Bu könüllülər toplandıqdan sonra Müsəlman korpusunun qərargahına məruzə edildi və korpusun qərargahında qərar alındı ki, Bakıda toplanan atlı dəstəsinə Müsəlman atlı divizionu adı verilsin. Bu divizion Müsəlman korpusunun süvari briqadasının 2-ci süvari alayının 2-ci divizionu kimi rəsmiləşdirilmişdi. Amma həm korpusun hissələrindən uzaqlığına görə, həm də təşkilatlanma xüsusiyyətlərinə görə bu divizion formal olaraq əlahiddə hissə statusuna malik idi. Onun 2-ci süvari alayının 2-ci divizionu kimi deyil, Müsəlman atlı divizionu kimi tanınması da bundan irəli gəlirdi.

M.Seyidlinin xatirələrində bu divizionun formalaşması ilə bağlı bir sıra maraqlı məqamlar vardır. Əvvəla, o da milli gənclər arasında xidmətə könüllü yazılanların çox olmasını təsdiq edir. Amma bu hissənin formalaşdırılmasında vətənpərvərlik hissləri nə qədər çox olsa da, qarşıya qoyulan məqsədə çatmaq üçün problemlər də yox deyildi. Silah, zabit kadrları, döyüş təcrübəsi və hazırlığı mövcud deyildi. Sonra imkan yaranan kimi, Bakının Çəmbərəkənd hissəsində olan məktəb binasında döyüş hazırlığının aparılmasına başlandı. M.Seyidli döyüş hazırlığına polkovnik Tabasaranlının rəhbərlik etdiyini bildirirdi. Çox təəssüf ki, istər Müsəlman korpusunun, istərsə də Cümhuriyyət ordusunun dövriyyədə olan arxiv sənədləri içərisində Tabasaranlı haqqında hər hansı bir məlumatla rastlaşmaq mümkün deyil. Çox güman ki, Tabasaranlı ixtiyar yaşında olan bir hərbçi olmuş və milli hərbi qüvvələrin yaradılmasına öz təcrübəsini vermək istəmişdi. Çünki, o çox yaşlı olmasaydı, heç şübhəsiz ki, Cümhuriyyət ordusunda xidmətə qoşulardı.

Nəhayət, M.Seyidli milli qoşun dəstəsinin toplanmasına minbaşı İsgəndərbəylinin rəhbərlik etdiyini bildirirdi. Arxiv sənədlərində isə bu şəxs İsgəndərbəyli kimi deyil, ştabs-kapitan İsgəndər Məlikbəyov kimi təqdim olunmuşdur (2, v.24). Malik olduğu rütbəsinə görə İsgəndər Məlikbəyovun da peşəkar süvari hərbçi olması şübhəsizdir. Lakin onun haqqında da hələlik dövriyyədə əlavə məlumatlar mövcud deyil.

Müsəlman atlı divizionunun təşkilinə 1918-ci il yanvar ayının əvvəllərində başlandı və qısa müddət ərzində yuxarıda göstərilən

sayda könüllünü toplamaq mümkün oldu. Zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün Bakıda qeyri-müsəlman zabitlərin də diviziona cəlb edilməsinə başlandı. Onlardan biri kornet İvan Zaxarov idi. O, Bakıda yerləşmiş Qafqaz sərhəd atlı divizionunun zabiti olmuşdu. Rusiyada bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra bu divizion buraxılmış və İ.Zaxarov Müsəlman atlı divizionuna qoşulmuşdu. Xidmət təcrübəsi nəzərə alındığı üçün o, Müsəlman atlı divizionunun ikinci yüclüyünün (bölüyünün) komandiri təyin edilmişdi. İ.Zaxarovun verdiyi məlumata görə, onun üçün xidmət səhər saat 8-də başlayırdı. O, hərbi hissəyə gəlir, yüzlüyü sıraya düzür və bu yüzlüyün şəxsi heyəti ilə tağım və eskadron təlimləri keçirdi. Könüllülər at çapmaq məharətinə yiyələnmədikləri üçün ilk vaxtlar təlimlər piyada şəklində həyata keçirilirdi (2, v.23).

1918-ci ilin yanvarında erməni-daşnak və bolşevik qüvvələrinin Bakıda kifayət qədər güclü olması Müsəlman atlı divizionunun və bütünlükdə digər milli qoşun hissələrinin Bakıda və ətrafında formalaşmasına ciddi bir mane idi. Öz hakimiyyətlərini möhkəmləndirmək və mənfur planlarını həyata keçirmək üçün ifrat vasitələrdən çəkinməyən həmin qüvvələr milli qoşun hissələrinin təşkilatlanmasından son dərəcə narahat idilər və bu prosesə mane olmaq üçün ən müxtəlif təzyiqlərə əl atdılar. Bunun üçün onların tabeliyində kifayət qədər hərbi qüvvə də var idi. Belə bir şəraitdə digər milli hərbi qüvvələr kimi, Müsəlman atlı divizionunun da Bakıda qalması çətinləşdi və bu divizion Lənkərana yollandı.

M.Seyidli öz xatirələrində bu barədə belə yazırdı: "Girişdiyimiz bu ciddi hazırlıqlar Bakıda olan Sovdeplərin heç də xoşuna getmirdi. Eyni zamanda ermənilərin də rus soldatları arasında bizə qarşı yapdıqları şiddətli propaqanda zatən gərgin olan aramızı bir qat daha da artırdı. Nəhayət, göz önündən çəkilməyi qərar verdik. Bizə ən yaxın yer Lənkəran şəhərini seçdik və bir axşama yaxın Lənkəran 80-ə qədər nizami bir əsgər kütləsinə sahib oldu. İlk dəfə olaraq Lənkəran əhalisi sevinclə, göz yaşları ilə milli əsgərlərini salamlayırdılar" (8).

Çox güman ki, Müsəlman atlı divizionunun Lənkərana göndərilməsi yalnız bu divizionun rəhbərliyinin deyil, həm də Müsəlman korpusunun qərargahının qərarı idi. Mövcud olan məlumatlar da onu deməyə əsas verir ki, divizionun Lənkərana göndərilməsi yalnız Bakıda hərbi-siyasi şəraitin mürəkkəbləşməsi ilə deyil, həm də Rusiya qoşunlarının buraxılması ilə Azərbaycanın cənub sərhədlərinin və cənub bölgəsində yerləşən əhalinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı idi (2, v.24). Çünki bir tərəfdən İran ərazisindən soyğunçu dəstələr talançı basqınlar edərək əhaliyə ciddi problemlər yaradırdı, digər tərəfdən də bölgədə olan Rusiya qoşun dəstələrinin bir sıra zabit və komandirləri Rusiyanın çökməsi, zorla bölgədə milli qüvvələrin və eləcə də bolşevik qüvvələrinin güclənməsi ilə barışmırdılar. Bu isə bölgədə qarışıqlığı və xaosu daha da artırırdı. Mövcud olan məlumatlara görə, çar Rusiyası çökən zaman Lənkəran-Biləsuvar bölgəsində polkovnik İlyaşeviçin komandirliyi altında 29-cu sərhəd briqadası (6, s.52), habelə 4-cü və 7-ci sərhəd alayları var idi (3, v.4).

Polkovnik İlyaşeviç milli qüvvələrin güclənməsini heç bir vəchlə qəbul etmək istəmir və qeyri-müsəlman əhaliyə, habelə tabeliyində olan hərbi qüvvələrə arxalanmaqla Lənkəran-Biləsuvar bölgəsində öz hakimiyyətini bərqərar etmək istəyirdi. Belə bir hakimiyyətin qurulması üçün İlyaşeviç yerli əhaliyə ən müxtəlif təzyiqlər göstərməkdən belə çəkinmirdi. Bunun nəticəsi idi ki, Müsəlman atlı divizionunun Lənkərana gəlməsi bölgə əhalisi tərəfindən çox böyük sevinclə qarşılanmışdı. Məsələn, bir qrup müsəlman tərəfindən Qızılağac müsəlmanlarına ünvanlanmış sənəd də bunu sübut edirdi. Elmi dövriyyəyə ilk dəfə çıxarılan bu müraciət çox güman ki, Lənkəran əhalisinin nümayəndələri tərəfindən yazılmışdı. 20-dən çox insan tərəfindən imzalanmış həmin müraciətdə deyilirdi: "Qızılağac müsəlmanlarının hüzuru-mübarəklərinə. Dün gün müsəlman Lənkəran Uyezdinin müsəlmanlarının imdadına əziz Lənkəran polku varid oldu. Qət olundu ki, islam düşməni rusları ki, burada var məhv etmək... Ayılın Qızılağaclı qardaşlar, yatmaq zamanı deyil. Nə hərəkət edirsiniz, nə xəyaldasınız. İndi bu zamandır ki,





qardaş qardaşa gərək öz imdad əlini uzada. Məgər sizdə islam qanı yoxdur? Belədirmi qardaşlıq haqqı? Beləmi bizə vəsiyyət edib Rəsuliəkrəm? İmdad zamanıdır, qardaşlar. Bu axırıncı kağızdır, yazıb sizə məlum edirik və təklif edirik atın, atın ruslar ətəyini, tutun islam ətəyindən. Cavabı bu gün saat 2-yə kimi gözləyirik. Cavab verin, əlahidə xəyal etməyin, qüvvəmiz böyükdür. 29 cəmadi-yül axər" (2, v.29).

M.Seyidli də öz xatirələrində Müsəlman atlı divizionunun Lənkəranda yerli əhali tərəfindən böyük sevinclə qarşıəlanmasını təsdiq edirdi. O yazırdı: "Özümüzü qüvvətli, daha doğrusu silahlı göstərə bilmək üçün 12-13 silahlını ön sıralara qoşmuş idik. Minlərcə əhalinin bizi sarması, gurultulu türk əsgərlərinin nizamla yürüşü, zabitlərin salam verən parlaq qılıncları və əhalinin ardı kəsilməz alqışları həqiqi rəsmikeçidi andırmaqda idi. Bax, bu bizim ən yaxın və ən canlı ülgümüz olmuşdu" (8).

Hazırda elmi dövriyyədə Müsəlman korpusunun və onun tərkibinə daxil olan hissə və birləşmələrin xidməti həyatı haqqında çox az həcmdə məlumat mövcuddur. Məlum olan sənədlər də daha çox Müsəlman korpusunun rəhbərliyi tərəfindən imzalanmış əmrlər və sənədlərdir. Müsəlman korpusunun tərkibinə daxil olmuş hissə və birləşmələr xidmətin təşkili ilə bağlı isə ümumiyyətlə heç bir sənəd elmi dövriyyədə yoxdur. Bu isə Müsəlman korpusunun hissə və birləşmələrində xidmətin necə təşkil edilməsi haqqında fikir yürütməyə imkan vermir. Hətta daxili əmrləşmənin aparılması haqqında belə aydın təsəvvür mövcud deyildi. Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivinin 1059-cu fondunun 2-ci siyahısının 2-ci və 3-cü saxlama vahidlərində mövcud olan bir neçə sənəd bu boşluğun aradan qaldırılması üçün xüsusi maraq və əhəmiyyət kəsb edir. Bu sənədlərdən biri Müsəlman atlı divizionu üzrə verilmiş daxili əmrdir (2, v.31).

1918-ci ilin mart soyqırımından sonra Bakıda öz diktaturasını bərqərar edən bolşevik-daşnak cütlüyünün hərbi qüvvələri ətraf bölgələri və o cümlədən Lənkəran bölgəsini də işğal altına aldılar. Bundan sonra Lənkəran bölgəsində Müsəlman atlı divizionu və bütünlükdə milli qüvvələrlə əməkdaşlıq etmiş şəxslər həbs edilərək istintaqa cəlb edildilər və onlar Bakının İnqilabı Müdafiə Komitəsi nəzdində yaradılmış Fövqəladə hərbi-istintaq komissiyasına verildilər. Müsəlman atlı divizionun adı çəkilən daxili əmri bu istintaq komissiyasının sənədləri arasında qalmışdır.

Yalnız bu əmrin mövcudluğu bütünlükdə Müsəlman korpusunun hissə və birləşmələri daxilində xidmətin təşkili ilə bağlı müəyyən təsəvvürlər əldə etməyə imkan verir. Bu sənəddən aydın olur ki, korpusun bütün hissə və birləşmələri daxilində gündəlik daxili əmrlər imzalanmış və ciddi sənədləşmə aparılmışdı. Çünki könüllülük əsasında formalaşan Müsəlman atlı divizionunda daxili əmrlər yazılırdısa, nizami tələblər əsasında forşalaşan digər hissə və birləşmələrdə belə əmrlərin yazıldığı şübhəsizdir. Bu da ondan xəbər verir ki, xidmətin təşkilinə və sənədləşdirilməsinə Müsəlman korpusunda çox ciddi şəkildə yanaşılmışdır.

Müsəlman atlı divizionunun haqqında danışılan daxili əmri 1918-ci il mart ayının 12-də imzalanmışdır və onun sıra nömrəsi 55-dir. Bu da belə bir nəticəyə gəlməyə imkan verir ki, Müsəlman atlıdivizionu üzrə ilk əmr təxminən 1918-ci il yanvar ayının ortalarında imzalanmışdır. Yəni, Müsəlman atlı divizionunun rəsmiləşdirilməsi həmin tarixə təsadüf edir. Bu əmr rus dilindədir və əmrdə hissənin adı belə verilmişdir: "Мусульманский конный дивизион".

Əmrə əsasən Müsəlman atlı divizionunun strukturunu da dəqiqləşdirmək mümkündür. Bu struktur belə olmuşdur: duvuzionun 1-ci və 2-cü yüzlüyü, topçu tağımı, pulemyot tağımı, part-təchizat hissəsi. Divizionda baytarlıq xidməti də mövcud idi. Divizion baytarı divizionun qərargahının və ya park-təchizat hissəsinə daxil ola bilərdi. Əmrə əsasən divizion strukturlarının komandirlərini də müəyyənləşdirmək mümkündür: 1-ci yüzlüyün komandiri kornet Əli Əsədullayev (o, Bakı milyonçusu Şəmsi Əsədullayevin oğlu idi), 2-ci yüzlüyün komandiri kornet İvan Zaxarov, pulemyot komandasının komandiri praporşik Seyidəliyev, park-təchizat hissəsinin komandiri praporşik Hacıyev, baytar xidmətinin rəisi həlim Petuxovski idi. Topçu tağımının komandirinin adına bu əmrdə rast gəlmək mümkün deyildir (2, v.31).

Ümumiyyətlə, Topçu tağımı atlı divizionlar üçün xarakterik deyil. Müsəlman atlı divizionunda bu tağımın olması bölgədə bir neçə topun ələ keçirilməsi ilə bağlı idi. Bu topların ələ keçirilməsini M.Seyidli belə təsvir edirdi: "Topçu zabitimiz vardısa da yalnız topumuz yoxdu. Onu da gözləmədiyimiz bir yerdən Tanrı bizə yetirdi. Bir gün adamlarımız sevincli bir xəbər gətirdilər. Astara limanında ruslar hüdud boyundan qaldırdıqları topları qayığa yükləyərək Bakı Sovdeplərinə göndərmək niyyətində idilər. Dərhal ərkani-hərbimiz toplanaraq topların ələ keşirilməsini qərar aldı. Bu qərarın icrasını topçu yüzbaşısı mərhum Kaçmarjevski (bu gənc zabit qısa bir zamanda bizləri o qədər sevdi ki, bizimlə tam arkadaş olmaq arzusu ilə dinimizi belə qəbul etdi) dər öhdə etdi və on kişi seçmə əsgərlə Astaraya yönəldi. Dan yeri ağaranda Astaraya çatmışdı. Vapur (qayıq) yol almağa hazırlanırdı. Dərhal tərtibat alaraq qayığı əlinə keçirdi və Kaçmarjevskinin əmri üzrə qayıq Lənkərana doğru yol aldı. Özü isə əsgərlərinin bir hissəsi ilə Lənkərana xəbər göndərərək qayıqda qalmışdı. Əlindəki bombası ilə ruslara: "Qayığın yolunu dəyişdiyini anlasam son bombamı top mərmilərinin içinə atacağam, belə canına qıyan varsa" – deyə əmin etmişdi. Bu dəfə topçu hissəsi də yarandı " (8).

Müsəlman atlı divizionu üzrə 12 mart 1918-ci il tarixli 55 nömrəli əmrdə bu divizionda xidmət edən aşağıdakı zabitlərin və döyüşçülərin adları ilə rastlaşmaq mümkündür: kornet Qberdsiteli, poruçik Keçmerjevski, praporşik Rzabəyov, praporşik Kaxidze, divizion yavəri podporuçik Əfəndiyev, 2-ci yüzlüyün yefreytoru Əli Cəbiyev, həmin yüzlüyün atlısı Səttar Qasım oğlu və İsrafil ağa Cavanşir, 2-ci yüzlüyün baş uryadniki İbrahim Mehdilyayev.

İstintaq sənədləri arasında divizionun pulemyot komandasının 1918-ci ilin mart ayına olan 14 nəfərdən ibarət şəxsi heyətinin siyahısı da vardır. Həmin siyahıda bu döyüşçülərin adları göstərilmişdir: Böyükağa İsmixanov, Həsən Həsənbəyov, Əlihəsən Həmzəli oğlu, Bilal Nəzərəli oğlu, İsgəndər Rza oğlu, Xeyrulla Heybətov, Əbdülrəhim Rəhimov, Hacıbaba Cavad oğlu, Əbdülbaqi İsmayılov, Mustafa Qasımov, Qəzənfər Nərimanov, Rəcəbəli Əliyev, Cəmaləddin Qədirov, Məmməd Ələkbərov (2, v.30).

Müsəlman atlı divizionunun daxili əmrindən görmək mümkündür ki, bu divizionu bölmələri gündəlik döyüş hazırlığı ilə məşğul olurdular. Bunun üçün bütün bölmələr səhər saat 8-də də dəniz kənarındakı təlim meydanına çıxar və orada döyüş hazırlığına başlayırdılar.

Divizionun təlim-tərbiyəsinin aparılması üçün silah əldə edilməsinə böyük ehtiyac var idi və Lənkərana gələndən sonra divizion rəhbərliyi bu məsələnin həlli üçün müxtəlif yollar aramağa çalışdı. Bölgədə olan rus sərhəd hissələrinin sərəncamında xeyli silah və sursat var idi. Divizionun ehtiyaclarının da məhz bu hissələrin hesabına ödənməsi daha real sayılırdı. Bu işdə Lənkəran qarnizonunun rəisi polkovnik baron Maqnus Osten-Saken də milli qüvvələrə mümkün köməkliyi göstərdi. Baron Osten-Saken milliyyətcə polyak idi və Rusiyada hakimiyyəti ələ keçirmiş bolşevik qüvvələrinə rəğbətlə yanaşmırdı. Ona görə də milli qüvvələrə kömək göstərilməsinə meylli idi və elə bunun üçün idi ki, bolşevik-daşnak qüvvələri 1918-ci ilin aprelində Lənkərana daxil olanda onu da həbs edərək Bakıya apardılar. Müsəlman divizionu rəhbərliyinin nümayəndələri Lənkərəna yetişəndən sonra polkovnik Osten-Sakenin yanına yollanaraq özlərini təqdim etdilər. Polkovnik Osten-Saken Müsəlman atlı divizionunu Zaqafqaziya Komissarlığına tabe olan qanuni hərbi hissə kimi tanıdı və bu divizionun rəhbərliyinin müraciətindən sonra milli hissəyə 2 ədəd pulemyot ayırdı (2, v.35).

Polkovnik Osten-Saken eyni zamanda Müsəlman atlı divizionunun döyüşçüləri tərəfindən dağılmaqda olan rus hissələrindəki silah və sursatın müsadirə etdrilməsinə də maneçilik yaratmadı. Yuxarıda qeyd edilidyi kimi, Müsəlman divizionu döyüşçülərinin fəallığı və qətiyyəti nəticəsində Astarada olan və Bakıdakı sovet qüvvələrinə göndərilməsi nəzərdə tutulan topçu batareyası ələ keçirildi və divizionda topçu tağımı da yaradıldı. Bu topların geri qaytarılması üçün həm bölgədəki rus hissələri komandanlığı, həm də bolşeviklər çox cəhdlər göstərdilər. Məsələ ilə bağlı 1918-ci il mart ayının 8-də Lənkəranda yerli ictimai təşkilatların, bölgədəki hərbçilərin nümayəndələrinin və Bakıdan gəlmiş bolşevik nümayəndələrinin iştirakı ilə toplantı keçirildi. Bu toplantıda Bakı fəhlə və əsgər deputatları komitəsinin nümayəndəsi Hacı Hüseyn Tağıyev çıxış edərək Müsəlman atlı divizionunun sərəncamında olan topların Lənkəranda saxlanmasına ehtiyacın olmadığına bəyan etdi və bununla onların təhvil verilməsi üzərində təkid etdi. Lənkəran şəhər dumasının sədri Xanoğlan Talışxanovun sədrliyi altında keçən bu toplantıda digər bolşevik nümayəndələri də, habelə milli ictimai təşkilatların nümayəndələri kimi həkim Şaxtaxtinski, Teymur bəy Dünyamalıbəyov, hərbçilərdən qarnizon rəisi polkovnik Osten-Saken, Müsəlman atlı divizionunun 1-ci yüzlüyünün komandiri Əli Əsədullayev və digərləri çıxış etdilər. Hərbçilər və ictimai təşkilatların nümayəndələri topların Lənkəranda saxlanmasının zəruriliyini bildirdilər. Polkovnik Osten-Saken hətta onu da bildirdi ki, Astaradan 4 ədəd topun Bakıya aparılması üçün gəmilərə yüklənməsi ondan xəbərsiz olaraq, yəni qeyri-qanuni şəkildə edilmişdi və ona görə də bu topların bölgədə saxlanmasına və sərhəd xəttinin qorunması üçün ondan istifadə edilməsinə təkid etdi (2, v.9). Beləliklə, bolşeviklərin və bölgədə mövcud olan rus hərb hissələrinin qaragüruhçu rəhbərliyinin təkidinə baxmayaraq Müsəlman atlı divizionunun tabeliyində olan 4 ədəd topu almaq mümkün olmadı.

Ümumən, bolşevik-daşnak qüvvələri, o cümlədən bu qüvvələri dəstəkləyən rus hərbi hissələri rəhbərliyi Lənkəranda və bölgədə olan silahların bölgədən çıxarılmasına və onların milli qüvvələrin əlinə keçməsinə mane olmaq üçün davamlı təxribatlar həyata keçirirdilər. Bu təxribatların qarşısının alınması üçün Müsəlman atlı divizionunun bölgəyə gəlməsindən az sonra Lənkəran şəhər dumasının fövqəladə iclası keçirildi. Duma üzvlərindən başqa polkovnik Osten-Sakenin, Müsəlman atlı divizionu komandirinin və zabitlərinin iştirakı ilə keçirilən həmin iclasın müzakirələrində qərar alındı ki, silahların Lənkərandan çıxarılmasına son qoyulsun və lazım olarsa bu işə Müsəlman atlı divizionu döyüşçüləri də cəlb olunsun (2, v.4).

Silahların bölgədən çıxarılmasının qarşısını almaq və təchizat ehtiyaclarını aradan qaldırmaq üçün Müsəlman atlı divizionunun döyüşçüləri bölgədə yerləşmiş rus hərbi hissələrinin anbarlarına basqınlar həyata keçirildi. M.Seyidli belə basqınlardan birini təsvir edərək yazırdı: "Apardığımız təhqiqata görə, bu qışlalarda tüfəng və pulemyot bol idi. Bu isə çox mühüm idi, zira Bakıda silah toplamaq ümidi artıq keçmişdi. Ermənilər bizdən daha əvvəl stansiyanı əllərinə keçirərək buradan keçən rus əsgərlərini qarşılayaraq onların silahlarını satın alırdı. Çox təəssüf o zaman ermənilərdə olan qüvvətli milli təşkilat bizdə yox idi. Çox az bir zamanda bu işdə də qələbə qazandıq. Lənkəranın qaranlıq, yağmurlu, çamurlu gecələrinin birində əvvəlcə öyrəndiyimiz yollar ilə müəyyən vaxtlarda səssizcə hücum edildi. Bir damla qan axıdılmadan əlimizə keçdilər. Təslim olan rus soldatlarına bir şey olunmadı, yalnız silahları alındı və buraxıldı. Qışlalarla birlikdə əlimizə 200-dən artıq tüfəng, saysız fişəng, 11 pulemyot, yük arabaları, bir neçə geyim və 40-a qədər minik atı keçdi. Artıq durmadan silahlara görə əsgər toplamağa başlandı. Sayımız artıq yüz oldu. Atlı, pulemyotçu hissələr ayrıldı" (8).

Beləliklə, qısa müddət ərzində Müsəlman atlı divizionunun təşkilatlandırılması üçün xeyli səmərəli işlər görmək mümkün oldu. Bunu Müsəlman korpusunun komandiri general-leytenant Əliağa Şıxlinski də öz əmrlərinin birində xüsusi olaraq qeyd edirdi. Onun 1918-ci il mart ayının 5-də imzaladığı 49 nömrəli əmrdə Müsəlman atlı divizionunun formalaşdırılması istiqamətində görülən işlər belə dəyərləndirilmişdi: "Qısa müddət ərzində divizion komandiri vəzifəsini icra edən ştab-rotmistr Məlikbəyov, kornet Əsədullayev və digər zabitlər tərəfindən formalaşdırılan Müsəlman atlı divizionu indiki dövrün çox çətin vaxtında mənim və digər rəhbər şəxslərin köməyi olmadan uzun zaman müstəqil fəaliyyət göstərməli olmuşdur. Buna baxmayaraq, divizion təşkil olunmuş, təlim almış, intizamlanmış və artıq Lənkəran qəzasının dinc əhalisini talanedici hücumlardan və anarxiyadan qorumaq üçün uğurlu işlər görmüşdür. Millət və Vətən naminə göstərilən bu yorulmaz fəaliyyətə görə, xidmət adından divizion komandiri vəzifəsini icra edən ştabs-rotmistr Məlikbəyova, divizionun təşkilinin təşəbbüskarı kornet Əsədullayevə və divizionun bütün zabitlərinə səmimi təşəkkürümü bildirirəm. Əsgərlə-

rə və muzdlulara səmimi sağ olumu çatdırıram. Əminəm ki, divizion gələcəkdə də tərkibinə daxil olduğu alayın döyüş şöhrətini qoruyacaqdır" (4, v.12).

Amma korpusun qərargahının nəzarətindən uzaqda olması, bölgədəki hərbi-siyasi şəraitin çətinlikləri, ağqvardiyaçı və bolşevik-daşnak qüvvələri tərəfindən daimi təzyiqlərə məruz qalması Müsəlman atlı divizionunun təşkilatlanmasına təsirsiz qalmadı. Divizionun tərkibində olan bir sıra könüllülər dövrün çətinliklərinə və divizionun qarşılaşdığı sınaqlara qarşı iradə nümayiş etdirə bilmədilər. Bu isə öz təsirini divizionun daxilində formalaşan ab-havaya mənfi təsir göstərdi. Bunu M.Seyidli də öz xatirələrində təsdiq edirdi: "Təşkilatımız ad qazandıqdan sonra sıralarımıza mütəəssüf bir neçə şıx, fəqət ərköyün gənclər yavaş-yavaş sızmağa başladı. Bakı milyonerlərinin oğulları quru yerdə başlarının altında yəhər, paltosuna bürünüb yatmaqda ikən bu yeni gəlmə gənclər ipək yorğanları ilə gəlirdilər. Bunların şıx geyimləri, inqilab dövründə olan Bakıya tez-tez gedib düşmən gözünə görünmələri hər iki tərəfdə də çox fəna təsirlər buraxırdı. Odur ki, zavallı qardaşımız Məhəmmədin vaxtsız ölümü fəlakətimizin başlanğıcı oldu" (28.

Müsəlman atlı divizionunun 12 mart tarixli 55 nömrəli əmri bu divizionun könüllüsü Məhəmməd Tağıyevin faciəli ölümündən sonra imzalanmışdı. Onun ölümü haqqında bu əmrdə də məlumat verilmiş və divizion üzrə matəm elan edilmişdi. Zabit və atlılar matəm əlaməti olaraq sol qollarına qara lent bağlamalı idilər. Əmrdən aydın olur ki, Məhəmməd Tağıyev Müsəlman atlı divizionunun pulemyot tağımının könüllüsü (вольноопределяющий) idi. Onun cənazəsini Bakıya aparan dəstəyə divizionun 1-ci yüzlüyünün komandiri kornet Ə.Əsədullayevlə pulemyot tağımının komandiri praporşik Seydəliyev rəhbərlik etmişdilər (2, v.31).

Müsəlman atlı divizionunda vaxt ötdükcə müəyyən intizamsızlıq hallarının özünü göstərməsi korpus komandiri Ə.Şıxlinskinin sonrakı əmrlərində də öz əksini tapmışdı. Məsələn, onun 1918-ci il 22 mart tarixli 73 nömrəli əmrinin 5-ci paraqrafında deyilirdi: "Müsəlman atlı divizionu (hazırda 2-ci süvari alayının 2-ci divizionu) üzrə əmrlərdən anlayıram ki, kiçik zabitlərin bəziləri öz xidmət vəzifələrinə kifayət qədər diqqətlə yanaşmırlar. Son zamanlar bölüklərdə müşahidə olunan özbaşınalıq bunun nəticəsidir. Divizion komandiri vəzifəsinin icraçısı tərəfindən intizam cəzalarına qədər qəbul olunmuş tədbirlərə baxmayaraq, zabitlər tərəfindən xidmətə laqeyd münasibət davam edir. 2-ci süvari alayının komandirinə əmr edirəm ki, divizionun bəzi zabitlərinin bu dözülməz hərəkətlərinə ciddi diqqət yetirsin. Unter-zabit kadrları olmayan gənc orduda qanun-qayda təmin edilməsi tamamilə zabitlərin öhdəsinə düşür. Yaşadığımız çətin vaxtda isə onların işi ikiqat artmalıdır. İşi bacarmayan, xüsusilə işləmək istəməyənlər bizə lazım deyildir. İndiki zamanda qoşunlarda zabit işinin əhəmiyyətini və müqəddəsliyini başa düşməyən şəxslərlə qərargahları doldurmaqdansa, daha yaxşı olar ki, az saylı zabitlərə malik olaq. Xidmətlə maskalananlar korpusdan xaric edilmək üçün təqdim edilsinlər" (4, v.28).

Göründüyü kimi, ilkin təşkilatlanması dövründə bir sıra müsbət nəticələr əldə olunmasına baxmayaraq, bütünlükdə bu divizionun formalaşdırılması üçün Müsəlman korpusunun rəhbərliyi çox ciddi tələblər irəli sürürdü. Lakin, Bakıda 1918-ci il mart ayının sonlarında azərbaycanlı əhaliyə qarşı soyqırımın həyata keçirilməsi, bolşevik-daşnak cütlüyünün ifrat təcavüzkarlığı üzündən Azərbaycan daxilində hərbi-siyasi şəraitin mürəkkəbləşməsi bu divizionun hərtərəfli formalaşmasını qeyri-mümkün etdi. 1918-ci il aprel ayının ortalarında Bakıda hakimiyyəti ələ almış Bakı Xalq Komissarları Soveti "Aleksandr Jander" gəmisində Lənkərana hərbi qüvvə göndərdi və burada da hakimiyyəti öz əlinə keçirdi (11, s.52). Müsəlman divizionu malik olduğu qüvvə ilə müqavimət göstərməsinə baxmayaraq, bolşevik-daşnak təcavüzünün qarşısını almaq mümkün olmadı. M.Seyidli Müsəlman atlı divizionunun Lənkəranı tərk etməsini belə təsvir edirdi: "İstehkamları birinci gecədən buraxıb gedənlər yenə də o şıx gənclər oldular. Nizam görməmiş əhalidə daha artıq cəsarət və təhəmmül olduğu belə bu qanlı günlərdə anlaşıldı. Eyni zamanda Azərbaycanlı Muğan çölündəki qara yarasa olan rus kəndləri





də rus ordusuyla birləşərək Lənkərandakı əsgərlərimizə hücum etmişlərdi. Gəncə tərəfdən yardıma gələn qardaşlarımız yetişməmişlərdi. Aramız kəsilmişdi. Axşama qədər sürən qeyri-bərabər qanlı döyüşdən sonra qalan qəhrəman əsgərlərimiz İran hüdudunu keçmək məcburiyyətində qaldılar və min bir bəladan sonra dağınıq bir halda İranın Gilan vilayətinə vardılar. Yoxsulluğa baxmayaraq burada da tutduğumuz yoldan çəkinmədik. Gilan qəhrəmanı Mirzə Kuçik xan ilə birlikdə Rəşt, Ənzəli tərəfləri ilə Bakıya bolşevik ordularının yardımına gedən qüvvələrin yolunu kəsməyə çalışdıq" (8).

Çox təəssüf ki, hələlik məlumatların qıtlığı üzündən Müsəlman atlı divizionunun şəxsi heyətinin sonrakı taleyinin mənzərəsini yaratmaq mümkün deyildi. Divizion döyüşçülərinin yenidən Azərbaycana necə qayıtması, sonradan onların milli hissələrə qoşulub-qoşulmamasına aydınlıq gətirmək üçün elmi dövriyyədə müfaviq məlumatlar yoxdur. Məlum olan isə odur ki, Azərbaycanın istiqlaliyyətinin əldə edilməsi və Qafqaz İslam Ordusunun yaradılması ilə Müsəlman korpusunun, ilk növbədə isə süvari hissələrinin yenidən təşkilinə başlandı və bununla Müsəlman atlı divizionunun mövcudluğuna da son qoyuldu.

Müsəlman atlı divizionun təşkili və tarixi bir neçə cəhətdən tarixi maraq və əhəmiyyətə malikdir. Əvvəla, bu divizionun təşkili milli nizami ordunun yaradılması istiqamətində Azərbaycanın milli qüvvələrinin tarixi fəaliyyətinin diqqətəlayiq nəticələrindən biri idi. Bu divizionun təşkili ilə Azərbaycanda nizami ordu quruculuğunun ilkin təcrübəsinin formalaşması istiqamətində səmərəli addımlardan biri atıldı. Digər tərəfdən, bu divizionun təşkili Azərbaycan zənginlərinin, Azərbaycanın aristokratik dairələrinin milli ordu qüvvələrinin yaradılmasına vətənpərvərlik yanğısı ilə yanaşdığını nümayiş etdirdi. Nəhayət, Müsəlman atlı divizionunun təşkili Azərbaycan xalqı arasında milli hərbi təfəkkürün canlandırılması və inkişaf etdirilməsi baxımından dəyərli bir addımdır. Bütün təşkilatlanma çətinliklərinə baxmayaraq, bu divivionun təşkili də Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrə də göstərdi ki, Azərbaycan xalqı öz müqəddəratının müəyyənləşdirilməsi üçün iradə nümayiş etdirməyə qadirdir.

**İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:**


1.Azərbaycanda ordu quruculuğunun ilk addımları // "Hərbi Bilik", №1, 1998, s. 86-88.

2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f. 1059, siy. 2, iş 2.

3. ARDA: f. 1059, siy. 2, iş 3.

4. ARDA: f. 2918, siy. 1, iş 1.

5. ARDA: f. 2918, siy. 1, iş 18.

6. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsindən. Bakı, 1963.

7. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

8. Seyidli Mirəziz. 28 May istiqlal yolunda Azəri tələbələri //"Azərbaycan Ordusu" qəzeti, 28 may 1998-ci il.

9. Şıxlinski Ə. Xatirələrim. Bakı, 1984.

10. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914-1918). Глава XIII. http://russia-armenia.info/node/9471.

11.Гусейнов А.А., Синицин В.М. Сражающаяся Мугань. Баку, 1979.

**Summary**

**Mehman Suleymanov**

**Muslim cavalry division**

***Keywords:*** *Muslim corps, Muslim cavalry division, national military unit, mobilization, national officers*

This article analyses the process of formation of the Muslim cavalry division. It was one of the first voluntary division of the Muslim corps which has been established in 1917 December. The lack of the historical information does not provide a full view of formation of the Muslim cavalry division. Some newly discovered historical documents allow us to gain valuable information about the formation of the Muslim cavalry division and to understand some aspects of organizing the service in this division.



**Резюме**

**Мехман Сулейманов**

**Мусульманский конный дивизион**

***Ключевые слова:*** *Мусульманский корпус, Мусульманский конный дивизион, национальные войсковые части, мобилизация, национальные офицерские кадры*

В статье анализируется процесс формирование Мусульманского конного дивизиона. Этот дивизион был одним из первых добровольных частей Мусульманского корпуса, формирование которого был начат в конце 1917 года. Отсутствие исторических сведений не дает возможность иметь полную картину становление Мусульманского конного дивизиона. Но найденные некоторые новые документы проливает определенный свет некоторым аспектам хода становления и организации службы в Мусульманском конном дивизионе.






**НУРУЛЛА АЛИЕВ**[1]

# КАВКАЗСКО-КАСПИЙСКИЙ РЕГИОН В СТРАТЕГИЧЕСКИХ ПЛАНАХ АНГЛИИ В 1918-1919 ГГ.

***Ключевые слова:*** *военно-стратегические цели, военно-политическая деятельность, военная экспедиция, боевые операции, пункты базирования, нефтепроводы и торговые коммуникации*

Стремление к установлению контроля над Южным Кавказом, в особенности, над Азербайджаном (Баку) и Каспием, являлось одним из традиционных и приоритетных направлений британской политики на Среднем Востоке и вполне вписывалось в ее основную геополитическую концепцию в отношении Евразии в целом. Не случайно, что Х.Маккиндер, будучи в 1919 году представителем британского командования на юге России, особо настаивал на необходимости «обеспечить британские позиции на Каспийском море» (1, с.72).

В свою очередь, бывший английский военный представитель в России генерал Альфред Нокс в своей книге «С русской армией в 1914-1917 гг.» (With the Russian Army. 1914-1917) отмечал, что вся политика Англии, «привыкшей думать веками и континентами», была в течение всего XIX и начала XX столетий направлена на то, чтобы лишить Россию выхода к отрытому морю. «Это уже не впервые, когда Каспий и дороги, ведущие к нему, привлекают внимание англичан», – напоминала лондонская «Таймс» (2, с.4).

Координирующим центром всей военно-политической деятельности Англии на огромном геополитическом пространстве, охватывающем Ближний и Средний Восток, а также Кавказ и Центральную Азию, стал созданный в конце марта 1918 года так называемый «Восточный комитет», председателем которого был Джордж Керзон. В состав этой структуры постоянно входили министр иностранных дел А.Бальфур, его заместитель лорд Роберт Сесил, постоянный заместитель министра иностранных дел лорд Хардинг, начальник имперского генштаба Г.Вильсон, министр по делам Индии Э.Монтегю и начальник военной разведки генерал-майор Дж.Макдонэ (3, с.81).

В то же время следует отметить, что на протяжении 1918-1919 годов в английских правительственных кругах не было единства взглядов по отношению к Кавказу и Персии. Выступая в декабре 1918 года против амбициозных проектов Дж.Керзона в этом регионе, министр по делам Индии либерал Э.Монтегю отмечал: «В том, что касается обороны Индии, мне не кажется необходимым для нас думать о Кавказе. Я считаю, что этот район полностью находится вне наших интересов» (4, с.74). Это было связано с тем, что Монтегю представлял те круги британского истэблишмента, которые в условиях борьбы за независимость, разгоравшихся в английских колониях от Каира до Калькутты, считали необходимым проводить на Востоке более гибкую политику, искать себе союзников в лице местных национальных сил.

В период Первой мировой войны идея создания сплошного пояса земель под британским контролем путем соединения трех «К» (Кейптаун-Каир-Калькутта) с четвертым «К» – Канберрой стимулировала новый мотив в политике Англии на Среднем Востоке – установление своего контроля над Каспием и Южным Кавказом, в особенности, над нефтяным Баку. «Союзники пришли к победе на волнах нефти», – констатировал Дж.Керзон в конце 1918 года (5, с.433). Не-

[1] *Профессор Отдела адъюнктуры и науки Военной Академии Вооруженных Сил, доктор наук по истории.*